# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında Dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramının təsdiq edilməsi barədə" 2000-ci il 10 avqust tarixli 383 nömrəli, "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun icrası ilə bağlı əlavə tədbirlər barədə" 2000-ci il 23 dekabr tarixli 432 nömrəli, "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2001-ci il 9 avqust tarixli 549 nömrəli və "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2011-ci il 16 fevral tarixli 386 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Məşğulluq haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1196-VQ nömrəli Qanununun icrasını təmin etmək məqsədilə qərara alıram:

**1.** Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 10 avqust tarixli 383 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 606; 2001, № 10, maddə 640; 2002, № 4 (II kitab), maddə 189, № 10, maddə 592; 2003, № 10, maddələr 566, 569; 2004, № 6, maddə 432; 2005, № 5, maddələr 400, 403, 405; 2006, № 7, maddə 590, № 8, maddə 678, № 9, maddə 742; 2007, №11, maddə 1097, № 12, maddə 1246; 2008, № 7, maddə 613; 2009, № 3, maddə 163, № 10, maddə 788, № 12, maddə 990; 2010, № 6, maddə 498, № 7, maddə 610; 2016, № 2 (II kitab), maddə 233, № 3, maddə 438; 2017, № 7, maddə 1352, № 11, maddə 2032) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı"nın 4.2.1-ci yarımbəndinin beşinci abzasında "statusu almış" sözləri "kimi qeydiyyata alınmış" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 23 dekabr tarixli 432 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 12, maddə 844; 2001, № 7, maddə 470, № 10, maddə 640; 2002, № 12, maddə 725; 2003, № 9, maddə 475, № 10, maddələr 569, 585; 2004, № 9, maddə 678; 2005, № 5, maddə 400; 2006, № 7, maddə 590; 2007, № 5, maddə 452, № 6, maddə 599, № 11, maddə 1097; 2008, № 7, maddə 613; 2009, № 3, maddə 163, № 12, maddə 990; 2010, № 6, maddə 498, № 7, maddə 610; 2013, № 10, maddə 1146; 2014, № 5, maddə 477; 2015, № 9, maddə 999; 2016, № 8, maddə 1384; 2019, № 3, maddə 413) ilə təsdiq edilmiş "Açıq tipli səhmdar cəmiyyətinə çevrilən dövlət müəssisələrinin səhmlərinin əmək kollektivinə güzəştli satışı haqqında Əsasnamə"nin 2.1-ci bəndinin beşinci abzasında "statusu almış" sözləri "kimi qeydiyyata alınmış" sözləri ilə əvəz edilsin.

**3.** "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 9 avqust tarixli 549 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 8, maddə 525; № 8, maddələr 485, 488; 2008, № 9, maddə 798; 2011, № 7, maddə 633; 2014, № 5, maddə 477, № 12, maddə 1571; 2016, № 8, maddə 1384) 2-ci hissəsi ləğv edilsin.

**4.** "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 90, № 7, maddə 625, № 11, maddə 996; 2012, № 9, maddə 853, № 11, maddə 1084; 2013, № 2, maddə 124, № 12, maddə 1525; 2014, № 7, maddə 789, № 9, maddə 1053; 2015, № 1, maddə 17, № 3, maddələr 263, 264, № 6, maddə 705, № 8, maddə 908, № 10, maddə 1134; 2016, № 3, maddə 437, № 5, maddə 859, № 6, maddələr 1051, 1072; 2017, № 9, maddə 1633; 2018, № 3, maddə 433, № 6, maddə 1245; 2019, № 1, maddə 73) aşağıdakı dəyişikliklər edilsin:

4.1. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə" üzrə:

4.1.1. 3.1.26-cı yarımbənddə "vətəndaşların" sözü "şəxslərin" sözü ilə və "əmək bazarının real tələblərinə müvafiq peşə hazırlığını, əlavə təhsilini və haqqı ödənilən ictimai işlərə" sözləri "aktiv məşğulluq tədbirlərinə" sözləri ilə əvəz edilsin;

4.1.2. aşağıdakı məzmunda 3.1.27-1-ci yarımbənd əlavə edilsin:

"3.1.27-1. peşə standartlarının hazırlanmasını, təsdiqini və tətbiqini təmin etmək;";

4.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti haqqında Əsasnamə" üzrə:

4.2.1. 1.1-ci bənddə və 3.1.4-cü yarımbənddə "vətəndaşların" sözü "şəxslərin" sözü ilə əvəz edilsin;

4.2.2. 2.1.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.1.2. qanunla müəyyən olunmuş qaydada işaxtaran və işsiz şəxslərin məşğulluq imkanlarının genişləndirilməsi, peşəyönümünün, peşə hazırlığının təmin edilməsi, bilik və bacarıqlarının artırılması, əmək bazarının tələblərinə uyğun işçi qüvvəsinin formalaşdırılması məqsədilə aktiv məşğulluq tədbirlərinin həyata keçirilməsini təmin edir;";

4.2.3. 2.1.4-cü yarımbənddə "daha çox" sözləri "xüsusi" sözü ilə və "vətəndaşların" sözü "şəxslərin" sözü ilə əvəz edilsin;

4.2.4. 2.1.6-cı yarımbənd ləğv edilsin;

4.2.5. 3.1.3-2-ci yarımbəndə "sığorta ödənişinin" sözlərindən sonra "və şəxsin peşə hazırlığına cəlb olunduğu dövrdə təqaüdün" sözləri əlavə edilsin;

4.2.6. 3.1.5-ci və 3.1.6-cı yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"3.1.5. "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, məşğulluğa kömək məqsədilə şəxslərin işaxtaran və işsiz kimi qeydiyyata alınmasını təmin etmək;

3.1.6. "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, işaxtaran və işsiz şəxslər üçün aktiv məşğulluq tədbirləri həyata keçirmək";

4.2.7. 3.1.7-ci və 3.1.8-ci yarımbəndlər ləğv edilsin;

4.2.8. 3.1.8-1-ci yarımbənddə "vətəndaşların" sözü "şəxslərin" sözü ilə, "əlavə iş yerləri və ixtisaslaşdırılmış" sözləri "kvotadan əlavə iş yerlərinin və sosial" sözləri ilə əvəz edilsin;

4.2.9. 3.1.9-2-ci yarımbənddə "kimi qeydiyyata alınmış və işsiz statusu almış" sözləri "və işsiz kimi qeydiyyata alınmış" sözləri ilə əvəz edilsin və həmin yarımbəndə "aktiv" sözündən sonra "məşğulluq" sözü əlavə edilsin;

4.2.10. 4.1.1-ci yarımbənddə "vətəndaşların" sözü "şəxslərin" sözü ilə əvəz edilsin və həmin yarımbənddən ", qanunvericilikdə nəzərdə tutulmuş hallarda təyinatı üzrə müvafiq vəsaitin köçürülməsi" sözləri çıxarılsın.

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 iyun 2019-cu il**

# Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyev Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev ilə görüşüb

❐ ***Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyev Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev ilə görüşüb.***

Bu barədə jurnalistlərə Rusiya Təhlükəsizlik Şurası Aparatının mətbuat katibi Yevgeni Anoşin məlumat verib. O bildirib ki, iyunun 18-də təhlükəsizlik məsələlərinə nəzarət edən yüksək vəzifəli şəxslərin Rusiyanın Ufa şəhərində keçirilən X beynəlxalq görüşü çərçivəsində baş tutan ikitərəfli görüşdə güc və xüsusi xidmət idarələrinin qarşılıqlı fəaliyyəti, eləcə də bu ilin sonunadək təhlükəsizlik sahəsində əməkdaşlıq planı müzakirə olunub.

***Fəridə ABDULLAYEVA,***
***AZƏRTAC-ın xüsusi müxbiri***

**Moskva**

# Ankarada Azərbaycan diplomatik xidmət orqanlarının 100 illiyi münasibətilə konfrans keçirilib





❐ ***Azərbaycanın Türkiyədəki səfirliyində ölkəmizin diplomatik xidmət orqanlarının 100 illik yubileyi münasibətilə konfrans keçirilib.***

Konfransda Ankarada akkreditə olunan diplomatik korpusun rəhbərləri və təmsilçiləri, Azərbaycan və Türkiyənin tanınmış alimləri, qardaş ölkənin paytaxtında təhsil alan tələbələr iştirak ediblər.

Konfransı giriş sözü ilə açan Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahim 100 il əvvəl təsis olunan Azərbaycanın diplomatik orqanlarının ötən dövrdəki fəaliyyəti və müasir inkişaf istiqamətləri, konfransın məqsəd və mahiyyəti barədə məlumat verib.

Sonra Azərbaycan Respublikası Prezidenti Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin məruzəsi dinlənilib. Azərbaycanın dövlətçilik tarixi, ənənələri, coğrafi mövqeyi, diplomatik orqanlarının yaranması və hazırkı vəziyyəti, o cümlədən Prezident İlham Əliyevin rəhbərliyi ilə müxtəlif sahələrdə aparılan köklü islahatlar, ölkəmizin sosial-iqtisadi inkişaf modeli və regionun nəqliyyat qovşağına çevrilməsi, iqtisadiyyatın şaxələndirilməsi və sair mühüm məqamlar barədə geniş məlumat verən şöbə müdiri Hikmət Hacıyev Azərbaycan xarici siyasətinin əsasları, onun strateji mövqeyi, region dövlətləri ilə münasibətləri, həyata keçirdiyi və regionun siyasi-iqtisadi xəritəsini dəyişən enerji və nəqliyyat layihələri barədə danışıb.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin real vəziyyətini təhlil edən Prezident Administrasiyasının rəsmisi Azərbaycan rəhbərliyinin həyata keçirdiyi sülh danışıqları prosesinin təcavüzkar Ermənistan hakimiyyətinin qeyri-konstruktiv mövqeyi səbəbindən nəticə vermədiyini diqqətə çatdıraraq bildirib ki, işğalçı tərəf davamlı olaraq təmas xəttində Azərbaycanın hərbi qulluqçularının və mülki vətəndaşlarının həlak olması ilə nəticələnən təxribatlar törətməkdədir. Məruzəçi işğalçı tərəfin hazırda regiondakı bütün iqtisadi layihələrdən təcrid olunduğunu vurğulayaraq əminliklə bildirib ki, əgər təcavüzkar ölkə öz işğalçılıq siyasətindən əl çəksə bu, ilk növbədə, Ermənistan üçün faydalar gətirər.

Sonda Prezident Administrasiyasının şöbə müdiri iştirakçıları maraqlandıran sualları cavablandırıb.

***Sabir ŞAHTAXTI,***
***AZƏRTAC-ın xüsusi müxbiri***

**Ankara**

# Hikmət HACIYEV: Azərbaycan həqiqətlərini əks etdirən hər bir tədbir faydalıdır

❐ ***Xarici ölkələrdə Azərbaycan mövzusunda təşkil olunan tədbirlər ölkəmizlə bağlı həqiqətlərin hədəflərə çatdırılması üçün çox vacibdir.***



Bu fikri açıqlamasında Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib. Azərbaycanın Ankaradakı səfirliyində təşkil olunan konfransda iştirakçıların suallarını yüksək dəyərləndirən şöbə müdiri deyib: "Ünvanlanan suallardan da göründüyü kimi, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda bütün sahələri əhatə edən islahatlar, o cümlədən xarici siyasətimizin ayrı-ayrı istiqamətləri bizimlə tərəfdaşlıq etmək istəyənlərin sayını artırmaqdadır. Dövlətimizin başçısının bildirdiyi kimi, bütün sahələr üzrə səmərəli əməkdaşlıq etmək istəyən tərəflərlə əlaqə qurmaq Azərbaycan üçün prioritet məsələdir. Bir sıra ölkələr var ki, onların Ankarada diplomatik nümayəndəlikləri var, amma Bakıda yoxdur. Suallardan da göründüyü kimi, bu konfransda ölkəmizin imkanlarından, perspektivdə olan layihələrimizdən bəhrələnmək istəyən tərəflər üçün cəlbedicilik yarada bilən daha bir addım atdıq".

***Sabir ŞAHTAXTI,***
***AZƏRTAC-ın xüsusi müxbiri***

**Ankara**

# Strasburqda yüksək səviyyəli konfransda Azərbaycanda məhkəmə-hüquq islahatlarından danışılıb

❐ ***Strasburqda Avropa Şurasının korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış ekspert qurumu - Korrupsiya əleyhinə Dövlətlər Qrupunun (GRECO) 20 illiyinə həsr olunmuş yüksək səviyyəli konfrans keçirilib.***




Avropa Şurasının Nazirlər Komitəsinə sədrlik edən Fransa hökumətinin dəstəyi ilə təşkil olunmuş tədbirin açılışında Avropa Şurasının Baş katibi Torbyorn Yaqland, Avropa Şurası Parlament Assambleyasının sədri Lilian Mouri Paskye, Avropa Komissiyasının birinci vitse-prezidenti Frans Timmermans, Fransanın ədliyyə naziri Nikol Belube və yüksəkvəzifəli rəsmilər iştirak ediblər.

Azərbaycanı tədbirdə Baş prokurorun müavini, Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev, Azərbaycanın Avropa Şurası yanında daimi nümayəndəsi Fəxrəddin İsmayılov və Baş İdarənin böyük prokuroru Elnur Musayevin daxil olduğu nümayəndə heyəti təmsil edib.

GRECO 20 illik fəaliyyəti ərzində üzv ölkələrə korrupsiyaya qarşı mübarizə sahəsində mühüm dəyişikliklərin həyata keçirilməsinə dəstək göstərib, habelə Avropa Şurasında daxili nəzarətin gücləndirilməsində aparıcı rol oynayıb.

Tədbirdə çıxış edən Kamran Əliyev Azərbaycan ilə Avropa Şurası arasında mövcud işgüzar və qarşılıqlı faydalı münasibətlər çərçivəsində GRECO ilə əməkdaşlığa ölkəmizdə verilən xüsusi diqqəti vurğulayaraq, bu əməkdaşlığın müsbət nəticələri barədə danışıb. Konfrans iştirakçılarına Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məhkəmə-hüquq islahatları, xüsusilə də 2019-cu il 3 aprel tarixli Prezident fərmanından irəli gələn vəzifələr barədə məlumat verilib, bu islahatların insan hüquqları və qanunun qorunması, şəffaflığın və cavabdehliyin gücləndirilməsi istiqamətində mühüm addım olduğu qeyd olunub.

Baş prokurorun müavini qeyd edib ki, ölkəmiz korrupsiyaya qarşı mübarizə sahəsində Avropa Şurasının ekspert qurumu tərəfindən verilmiş tövsiyələrin böyük qismini icra edib, dəyərləndirmənin üç raundu başa çatdırılıb və əldə olunmuş nəticələr uğurlu hesab olunub. Ölkəmizin, həmçinin GRECO-nun dəstəyi ilə təşkil olunan Korrupsiyanın qarşısının alınması üzrə Sibernik Şəbəkəsinin fəal üzvlərindən biri olduğu xatırladılıb. GRECO-nun fəaliyyətinin gücləndirilməsi ilə bağlı təkliflər səsləndirilib. Beynəlxalq Prokurorlar Assosiasiyasının vitse-prezidenti kimi Kamran Əliyev ölkəmizin dəstəyi ilə formalaşmış Antikorrupsiya Prokurorları Şəbəkəsi (NACP) və digər beynəlxalq antikorrupsiya təşkilatları ilə GRECO arasında əlaqələrin möhkəmləndirilməsinin vacibliyini vurğulayıb.

Yüksək səviyyəli konfransda hazırkı mərhələdə dəyərləndirmə predmeti olan icra hakimiyyəti orqanlarında korrupsiyanın qarşısının alınması və dürüstlüyün bərqərar olunması, həmçinin GRECO-nun növbəti fəaliyyət planlarının qurulması mövzularına həsr olunmuş sessiyalar keçirilib və iştirakçılar arasında geniş fikir mübadiləsi aparılıb.

***Şəhla AĞALAROVA,***
***AZƏRTAC-ın xüsusi müxbiri***

**Paris**

**İyunun 15-də Tacikistanın paytaxtı Düşənbədə Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin beşinci Zirvə toplantısı keçirilib. Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov Zirvə toplantısında iştirak edib.**

Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon tədbirdə iştirak edən dövlət və hökumət başçılarını qarşıladı.

Dövlət və hökumət başçıları birgə foto çəkdirdilər.

Prezident Emoməli Rəhmon Zirvə toplantısını açaraq nümayəndə heyətlərinin rəhbərlərini salamladı.



# Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin V Zirvə toplantısı keçirilib

## *Azərbaycanın Baş Naziri Novruz Məmmədov Zirvə toplantısında iştirak edib*




Dövlət başçısı terrorizm, ekstremizm kimi bəlaların regionda təhlükəsizliyə əsas təhdid olduğunu diqqətə çatdırdı. Qeyd etdi ki, bu təhdidlər region ölkələri arasında əməkdaşlığın daha da gücləndirilməsini zəruri edir. Prezident regionda ümumi maraqların təmini naminə nəqliyyat infrastrukturu layihələrinin genişləndirilməsinin önəmini bildirdi.

Bundan əvvəl quruma sədrlik edən Çin Xalq Respublikasının Sədri Si Cinpin çıxış edərək Asiya regionunda sülhün və təhlükəsizliyin təmin edilməsinin ümumi məqsəd olduğunu bildirdi. O, bütün sahələrdə birgə əməkdaşlığın inkişaf etdirilməsinin zəruriliyini vurğuladı. Regionda mövcud olan tolerantlığın qorunmasının vacibliyini vurğulayan Si Cinpin Asiyada əməkdaşlığın inkişafına maneə törədən təhdidlərdən bəhs etdi.

Zirvə toplantısında çıxış edən Baş Nazir Novruz Məmmədov tədbirin yüksək səviyyədə təşkilinə görə Prezident Emoməli Rəhmona təşəkkürünü bildirdi, Tacikistan Respublikasının quruma sədrliyinin Asiya regionunda sülh, sabitlik və təhlükəsizliyin möhkəmləndirilməsinə töhfə verəcəyinə əminliyini ifadə etdi.

Baş Nazir Novruz Məmmədov qeyd etdi ki, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə Asiya qitəsində sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsi üçün dialoq və əməkdaşlıq platformasıdır. "Şübhəsizdir ki, silahlı münaqişələr, terrorizm, irqçilik, radikalizm, dözümsüzlük və kiber təhlükələr beynəlxalq sülh və təhlükəsizlik üçün ciddi risklər doğurur. Beynəlxalq və regional təhlükəsizlik bir-biri ilə sıx bağlıdır. Dünyanın bir bölgəsində sülh və sabitliyin pozulması digər regionlarda da təhlükəsizlik üçün təhdidlər yaradır", - deyə Novruz Məmmədov bildirdi.

Ermənistanın 30 ilə yaxındır beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirdiyini diqqətə çatdıran Baş Nazir bu siyasət nəticəsində Azərbaycan ərazisinin 20 faizinin - Dağlıq Qarabağın və ətrafındakı yeddi rayonun Ermənistan tərəfindən işğal olunduğunu vurğuladı. Bildirdi ki, münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurası, Qoşulmama Hərəkatı, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası və digər təşkilatlar tərəfindən müvafiq qərar və qətnamələr qəbul edilib. Həmçinin Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həllini dəstəkləyən bəyanat və qərarlar qəbul olunub. Münaqişə beynəlxalq hüququn normalarına, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə və Helsinki Yekun Aktına əsasən Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində həll edilməlidir.

Novruz Məmmədov dedi ki, Azərbaycan bu gün hərtərəfli və dinamik inkişaf yolu ilə irəliləyən müasir dövlətdir. Ölkəmizin iştirakçısı və təşəbbüskarı olduğu müxtəlif beynəlxalq layihələrin geniş regional əməkdaşlıq üçün möhkəm əsas yaratdığını vurğulayan Baş Nazir dedi: "Biz nəqliyyat infrastrukturuna - dəniz limanları, dəmir yolları, hava limanları və magistral yollara böyük sərmayə yatırmaqla əlverişli coğrafi mövqeyimizi real nəqliyyat imkanlarına çevirmişik. Bu gün Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişdiyi vacib tranzit ölkəyə çevrilib. 2017-ci ildə istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu xətti Asiya və Avropa arasında vacib logistik bağlantıdır. Bütün bunlar həm də beynəlxalq əməkdaşlıq formatını yaradır, xalqları və ölkələri bir-birinə bağlayır, sülh və sabitliyə xidmət edir".

Azərbaycanın 2019-2022-ci illərdə Qoşulmama Hərəkatına sədrlik edəcəyini xatırladan Baş Nazir bildirdi ki, ölkəmiz Qoşulmama Hərəkatının yaratdığı çoxtərəfli platformadan istifadə edərək beynəlxalq sülh və təhlükəsizliyin möhkəmləndirilməsi, ölkələr arasında dialoq və əməkdaşlığın inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcək.

Digər dövlət və hökumət başçıları da çıxışlarında Asiya regionunda ölkələrin suverenliyinə, ərazi bütövlüyünə hörmət, mehriban qonşuluq, daxili işlərə qarışmamaq prinsipləri əsasında əməkdaşlığın qurulmasının önəmini qeyd etdilər, mövcud münaqişələrin regionun təhlükəsizliyinə ciddi təhdid olduğunu vurğuladılar. Regionun sabitliyinin təmini üçün, ilk növbədə, bu münaqişələrin nizamlanmasının vacibliyi bildirildi.

Həmçinin çıxışlarda narkotik qaçaqmalçılığının, nüvə silahının yayılmasının qarşısının alınmasının, terror qruplaşmalarına qarşı mübarizənin zəruriliyi diqqətə çatdırıldı, böyük İpək Yolunun bərpasına dəstək ifadə olundu.

Sonda Zirvə toplantısının Bəyannaməsi qəbul edildi.

* * *

Səfər çərçivəsində Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov ilə Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun görüşü olub.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin hazırkı səviyyəsindən məmnunluq ifadə olundu, həmçinin müxtəlif sahələrdə qarşılıqlı əməkdaşlığın daha da genişləndirilməsinə dair fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***

# Bakı Konqres Mərkəzində məzun gecəsi



**İyunun 15-də Bakı Konqres Mərkəzində Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi və Azərbaycan Respublikası Gənclər Fondunun birgə təşkilatçılığı ilə "Gələcəyə doğru" adlı məzun gecəsi keçirilib. Mərasimdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev, Təhsil, Gənclər və İdman nazirliklərinin məsul işçiləri iştirak ediblər. Qonaqlar əvvəlcə foyedə gənclər təşkilatlarına məxsus müxtəlif məzmunlu stendlərlə tanış olublar.**



AZƏRTAC xəbər verir ki, təhsil naziri Ceyhun Bayramov Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın məzunlara təbrik məktubunu iştirakçıların diqqətinə çatdırıb.

Sonra Azərbaycanda təhsilə, gənclərə və idmana dövlətimiz tərəfindən qayğıdan bəhs edən videoçarx nümayiş olunub.

Çoxsaylı məzunların qatıldığı tədbir maraqlı konsert proqramı ilə davam edib.

# *Tibb işçilərinin peşə bayramı qeyd olunub*



**Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 2001-ci il 4 iyun tarixli sərəncamı ilə Azərbaycan Respublikasının sosial inkişafı sahəsində tibb işçilərinin böyük xidmətlərini və Azərbaycan Xalq Cümhuriyyətinin ilk Səhiyyə Nazirliyinin 1918-ci il iyunun 17-də yaradılması nəzərə alınaraq hər il iyunun 17-si Azərbaycan Respublikası Tibb İşçilərinin Peşə Bayramı Günü kimi qeyd olunur.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, tibb ictimaiyyətinin nümayəndələri Fəxri xiyabanda xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstələri qoyaraq, xatirəsini ehtiramla yad etdilər.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə də gül dəstələri düzülüb.

Ziyarətdən sonra Səhiyyə Nazirliyində tibb işçilərinin peşə bayramına həsr edilmiş kollegiya iclası keçirilib.

Tədbiri giriş sözü ilə açan səhiyyə naziri Oqtay Şirəliyev səhiyyə sahəsindəki islahatlardan söz açıb, dövlətin səhiyyə sahəsinə olan diqqəti nəticəsində baş vermiş müsbət dəyişiklikləri qeyd edib. Tibb işçilərini peşə bayramı münasibətilə təbrik edən nazir onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Diqqətə çatdırılıb ki, ümummilli liderin ölkə rəhbərliyinə qayıdışından dərhal sonra onun həyata keçirməyə başladığı islahatlar tibb sahəsində də öz bəhrəsini verdi, səhiyyənin səmərəsinin artırılması və intensivləşdirilməsi üçün baza yaradıldı, beynəlxalq əlaqələr genişləndirildi: "Bu gün Azərbaycan səhiyyəsi özünün yeni inkişaf mərhələsini yaşayır. Prezident İlham Əliyevin diqqət və qayğısı ilə nəinki Bakıda, bölgələrdə də müasir tibb mərkəzləri açılır, köhnə tibb ocaqları yenidən bərpa olunaraq müasir avadanlıqlarla təmin olunur. Səhiyyə sisteminin inkişafı, bu sahənin maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsi və infrastrukturun yeniləşdirilməsi daim diqqət mərkəzindədir. Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi strateji siyasət kursunu layiqincə davam etdirən Prezident İlham Əliyevin həyata keçirdiyi sosial siyasət nəticəsində dövlət büdcəsindən səhiyyəyə ayrılan vəsait ildən-ilə artırılır. Bu da tibb müəssisələrinin fəaliyyətinin yaxşılaşdırılmasına, ümumilikdə tibbi xidmətin müasir tələblər səviyyəsinə qaldırılmasına yeni imkanlar açır. Prezident İlham Əliyevin rəhbərliyi altında aparılan genişmiqyaslı islahatlar göstərir ki, milli səhiyyə sistemimiz sürətlə müasirləşir, vətəndaşlarımız dövlətin yaratdığı tibb xidmətlərindən yüksək səviyyədə yararlanırlar. Səhiyyə sistemində aparılan islahatlar vətəndaşların sağlamlığının etibarlı təminatına xidmət edir. Azərbaycan səhiyyəsinə göstərilən bu diqqət və qayğının təzahürü kimi tibb işçiləri peşə bayramının qeyd edilməsini də göstərmək olar".

Daha sonra nazir Prezident İlham Əliyevin tibb işçilərinin peşə bayramı münasibətilə imzaladığı sərəncama əsasən səhiyyə işçilərinin "Tərəqqi" medalı, "Əməkdar həkim" və "Əməkdar müəllim" fəxri adlarına, "Tərəqqi" medalına layiq görülən sağlamlıq keşikçilərini, eləcə də "Səhiyyə əlaçısı" döş nişanı və fəxri fərmanla təltif olunanları təbrik edib.

# Bakıda "İnvaziv diaqnostika və müalicə: Bu gündən sabaha" adlı beynəlxalq konfrans





**Milli Onkologiya Mərkəzində (MOM) 15 iyun – Milli Qurtuluş Günü, həmçinin MOM-un nəzdində yaradılmış İnvaziv Diaqnostika və Müalicə Şöbəsinin 5 illiyinə həsr olunmuş "İnvaziv diaqnostika və müalicə: bu gündən sabaha" adlı beynəlxalq konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə yerli həkimlərlə yanaşı, Türkiyə və Rusiyadan dəvət olunmuş tibb mütəxəssisləri - Türkiyənin Koç Universiteti Xəstəxanasının professoru Çil Barbaros Erhan, dosent Aslan Fatih, Rusiyanın N.N.Petrov adına Milli Onkoloji Tibbi Tədqiqat Mərkəzinin Endoskopiya şöbəsinin rəhbəri Oleq Tkaçenko bu sahədə ən son elmi və praktiki təcrübələrini bölüşüblər. Konfransda həkim və mütəxəssislərlə tibbin bu sahəsinin ən aktual məsələləri müzakirə olunub və cərrahi əməliyyat otaqlarından bir sıra əməliyyatlar da birbaşa yayımlanıb.

Tədbir Azərbaycan Respublikasının dövlət himninin səslənməsi ilə başlayıb.

Konfransı açan Milli Onkologiya Mərkəzinin baş direktorunun müavini, tibb üzrə fəlsəfə doktoru Fuad Quliyev MOM-un baş direktoru, akademik Cəmil Əliyevin salamlarını çatdırıb. O, onkologiya elminin müasir dövrdə inkişafı və



tədbirin əsas məqsədi barədə məlumat verib. Diqqətə çatdırılıb ki, konfransın əsas məqsədi tədbir iştirakçılarına inkişafda olan Azərbaycan səhiyyəsinin uğurlarından bəhs etmək, Milli Onkologiya Mərkəzinin İnvaziv Diaqnostika və Müalicə Şöbəsində icra olunan diaqnostik yeniliklər, invaziv müdaxilələr barədə məlumat verməkdir.

Konfransda Ruslan Məmmədovun "Endoskopik ultrasəs müayinəsinin günümüzdə aktuallığı", Gülüstan Babayevanın "Xroniki pankreatitlərin diaqnostikasında yeniliklər", Aslan Fatihin "Advanced Endoscopy- ESD, STER, POEM, POET", Çil Barbaros Erhanın "Hepatosellular karsinomada transarterial lokoregional müalicələr", Oleq Tkaçenkonun "Submukozal tunel endoskopik rezeksiya, anastomoz çatışmazlığı zamanı endoskopik yanaşma", Eldar Quliyevin "MOM-da qaraciyər törəmələrində invaziv müalicə taktikaları", Cavid Əhmədovun "Qastrik varikoz genişlənmələrdə invaziv radiologiyanın yeri", Ruslan Əliyevin "Uşaqlıq qanaxmalarında invaziv müdaxilələrin rolu", Fərid Quliyevin "MOM-da icra olunan invaziv endoskopik müalicə üsulları", "Elgün Həziyevin "Onkoloji xəstələrdə kreatinin yüksəlməsinə yanaşma" mövzularında məruzələri dinlənilib və müzakirələr aparılıb.

Qeyd edək ki, tədbir Azərbaycan Respublikası Elmi-Tibbi Şurası tərəfindən akkreditasiyadan keçib və 8 kredit vahidi verilib. Konfransın sonunda iştirakçılara sertifikatlar təqdim olunub.

# Azərbaycan nümayəndə heyəti Vyanada Avstriya hökumətinin və parlamentinin üzvləri ilə görüşüb

***Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin rəhbərlik etdiyi nümayəndə heyəti Avstriyada səfərdədir. Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Avstriya hökumətinin və parlamentinin üzvləri ilə görüşüb.***





Görüşdə Şeyxülislam Allahşükür Paşazadə, Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, xarici işlər nazirinin müavini Ramiz Həsənov, Milli Məclisin komitə sədrləri Siyavuş Novruzov və Səməd Seyidov, Azərbaycanın Avstriyadakı səfiri Qalib İsrafilov, Avstriyanın federal nəqliyyat, innovasiya və texnologiya naziri Andreas Rayxhart, Avstriya parlamentinin üzvü Qeral Hauzer, Azərbaycan-Avstriya Əməkdaşlıq Şurasının rəhbərliyi iştirak ediblər.

Görüşün əvvəlində iyunun 19-da Vyanada keçiriləcək "Dinlərarası və sivilizasiyalararası əməkdaşlıqdan bəşəri həmrəyliyə" mövzusunda beynəlxalq konfrans üçün yaradılan şəraitə görə təşəkkür edən Şeyxülislam Allahşükür Paşazadə Azərbaycan Prezidenti İlham Əliyevin ideya rəhbəri olduğu tədbir barədə ətraflı məlumat verib. Qeyd edilib ki, müxtəlif dinlərin və mədəniyyətlərin dinc birgə yaşadıqları Avstriya tarixən yüksək tolerantlığın hökm sürdüyü ölkə kimi tanınıb və məhz buna görə də beynəlxalq konfransın bu ölkənin paytaxtı Vyana şəhərində keçirilməsi qərara alınıb.

Şeyxülislam Avstriya nümayəndələrini bu ilin sentyabrında keçiriləcək "Dünya dini liderlərinin II Bakı sammiti"ndə iştiraka dəvət edib.

Avstriyanın federal nəqliyyat, innovasiya və texnologiya naziri Andreas Rayxhart konfransın Vyanada keçirilməsindən məmnunluğunu ifadə edərək, özünü əbədi bitərəf dövlət elan etmiş Avstriyada dinlərarası və mədəniyyətlərarası dialoqun mühüm əhəmiyyət daşıdığını bildirib. Bu tarixi ənənə fonunda Avstriyanın müxtəlif dini, milli, mədəni və digər görüşləri təmsil edən tərəflər arasında dialoqun baş tutduğu ölkəyə çevrildiyini qeyd edən nazir, həmçinin bu amillərlə yanaşı, iqtisadi əlaqələrin inkişafının diqqət mərkəzində durduğunu bildirib. Diqqətə çatdırılıb ki, Azərbaycanı və Avstriyanı uzun illərə söykənən dostluq əlaqələri bağlayır. Bu ilin martında Azərbaycan Prezidenti İlham Əliyevin Avstriyaya səfəri bu dostluğun zirvə nöqtəsini təşkil edib. Həmin səfər çərçivəsində Azərbaycan-Avstriya Əməkdaşlıq Şurasının əsası qoyulub. Bu Şuranın əsas məqsədi iki ölkə arasındakı dostluq əlaqələrini yeni mərhələyə çıxarmaqdır. Avstriya-Azərbaycan iqtisadi əlaqələrinin dərinləşməsi ilə yanaşı, mədəni və dini mövzularda layihələrin inkişaf etdirilməsini hədəf seçən bu qurum ölkələrimizin və xalqlarımızın daha da yaxınlaşmasına xidmət edəcək. Uzunmüddətli əməkdaşlığın inkişaf etdirilməsinə qarşılıqlı marağın mövcud olması hər iki ölkənin bu əlaqələrdən bəhrələnməsinə gətirib çıxaracaq.

Nazir bir daha iki ölkə arasında sıx və mütəmadi əlaqələrin inkişaf etməsində maraqlı olduqlarını və şəxsən özünün Azərbaycana dərin dostluq hissləri bəslədiyini ifadə edib.

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov görüşdə çıxış edərək Prezident İlham Əliyevin Avstriya xalqına və hökumətinin üzvlərinə ehtiram və salamlarını çatdırıb. Prezidentin köməkçisi qeyd edib ki, Azərbaycan tərəfi ölkələrimiz arasında münasibətlərin daha da inkişafına dəstək verəcək və bu inkişafa maraq dövlət başçıları tərəfindən də ifadə olunub.

Cari ilin martında Prezident İlham Əliyevin Avstriyaya uğurlu səfərinin nəticəsi olaraq Azərbaycan-Avstriya Əməkdaşlıq Şurasının yaradıldığını və bu qurumun artıq öz fəaliyyət istiqamətlərini müəyyən edərək işə başladığını bildirən Əli Həsənov şuranın iki ölkə arasında əlaqələrin dərinləşməsinə töhfə verəcəyinə inandığını vurğulayıb.

Vyananın Avrasiyada dinlərarası və mədəniyyətlərarası dialoqun mərkəzlərindən biri olduğunu bildirən Prezidentin köməkçisi beynəlxalq konfransın keçirilməsi üçün məkan seçimində qərarın bu şəhərin xeyrinə verilməsinin təsadüfi olmadığını diqqətə çatdırıb. Qeyd edilib ki, dinlər, mədəniyyətlər və sivilizasiyalar arasında dialoq Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin istiqamətlərindən biridir. Azərbaycanın müstəqillik tarixinin son 25 ilində ölkə daxilində davamlı olaraq bu istiqamətdə dialoq dövlətin yürütdüyü ali siyasi kursdur. Lakin Azərbaycan bu dialoqu ölkə daxilində reallaşdırmaqla kifayətlənmir, eyni zamanda, qarşılıqlı hörmət və rəğbətə söykənən bu dəyərləri dövlətlərarası münasibətlərin əsas prinsiplərindən biri hesab edir. Dövlətlərarası müstəvidə bu, özünü müxtəlif sivilizasiyalar arasında əlaqələrin intensivləşməsində tapır. Azərbaycan dövlətinin başçısı müxtəlif xüsusiyyətlərə malik sivilizasiyalar arasında dialoq, əməkdaşlıq və tərəfdaşlığı alternativi olmayan bir istiqamət hesab edir və dünya ölkələrinin bu siyasi xəttə əməl etməsi arzuolunandır.

Vyanada keçiriləcək konfransa toxunan Əli Həsənov qeyd edib ki, bütün dinləri və sivilizasiyaları təmsil edən nümayəndələrin, dövlət və hökumət rəsmilərinin iştirak edəcəkləri tədbirdə dinlərarası və sivilizasiyalararası əməkdaşlığa çağırış edən bəyannamənin qəbul olunacağı da gözlənilir. Konfransda müzakirəyə çıxarılacaq mövzular, ediləcək çağırışlar, onun təmsil etdiyi dəyərlər həm Azərbaycanın, həm Avstriyanın, həm də bütövlükdə Avropa İttifaqının kursuna tam uyğundur.

Qeyd edək ki, iyunun 19-da Vyanada "Dinlərarası və sivilizasiyalararası əməkdaşlıqdan bəşəri həmrəyliyə" mövzusunda keçiriləcək beynəlxalq konfransda dünyanın 30-dan çox ölkəsini təmsil edən 300-ə yaxın dövlət, ictimaiyyət, elm və din xadimlərinin, həmçinin 5 beynəlxalq və 16 qeyri-hökumət təşkilatının rəhbərlərinin, o cümlədən BMT Baş katibinin müavinləri - M.Moratinos və R.Xalikovun, Avstriya Federal Hökumətinin və parlamentinin nümayəndələrinin, habelə Avstriyada akkreditə olunmuş səfirliklərin və beynəlxalq təşkilatların, dini konfessiyaların nümayəndələrinin iştirakı nəzərdə tutulub.

***Elgün NİFTƏLİ,***
***AZƏRTAC-ın xüsusi müxbiri***
**Vyana**

# Suraxanıda Milli Qurtuluş Gününə həsr edilmiş konfrans keçirilmişdir



**Suraxanı rayonunda 15 iyun – Milli Qurtuluş Günü münasibətilə Bakı Şəhər İcra Hakimiyyəti, Bakı Şəhər Mədəniyyət İdarəsi və Suraxanı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə rayondakı Heydər Əliyev parkında tanınmış incəsənət ustalarının iştirakı ilə konsert təşkil olunmuşdur. Konsertdə rayon icra hakimiyyəti başçısı yanında Şuranın üzvləri, YAP rayon təşkilatı idarə heyətinin üzvləri, 2 mindən yuxarı rayon sakini iştirak etmişdir.**

Növbəti tədbir isə "Müstəqilliyimizi şərəfləndirən şanlı tarix" mövzusunda konfrans Suraxanı Rayonu Heydər Əliyev Mərkəzi, rayon icra hakimiyyəti və YAP rayon təşkilatı tərəfindən təşkil olunmuşdur.

Tədbir iştirakçıları əvvəlcə ümummilli liderin Heydər Əliyev parkında ucalan abidəsini ziyarət etmiş, Suraxanı Rayonu Heydər Əliyev Mərkəzi ilə, ulu öndərin xatirəsinə həsr edilmiş poçt markaları və kitab sərgiləri ilə tanış olmuş və adıçəkilən mərkəzin sifarişi ilə hazırlanmış "Xilaskar" filminə baxmışlar.

Dövlət himni səsləndirildikdən sonra konfransda məruzə ilə çıxış edən rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov bildirmişdir ki, 15 iyun – Milli Qurtuluş Günü milli dövlətçilik tariximizdə mühüm önəm daşıyır. İyirmi altı il öncə gerçəkləşən bu tarixi gün xaosdan tərəqqiyə keçidin təməlini təşkil etməklə yanaşı, mövcudluğunun ən qüdrətli dövrünü yaşayan müstəqil Azərbaycan Respublikasının bütün uğurlarının, əldə etdiyi nailiyyətlərin zəminidir. 1993-cü ilin ağrı-acılı iyun günlərində vətəndaş qarşıdurmasının, Azərbaycan dövlət müstəqilliyinin itirilməsinin və parçalanmasının qarşısının alınması məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

1993-cü ilin iyununda xalqın təkidi ilə ümummilli lider yenidən hakimiyyətə gəlməsəydi, şübhəsiz ki, bugünkü müstəqil Azərbaycanın varlığından danışmaq mümkün olacaqdı.

Rayon rəhbəri qeyd etmişdir ki, ümummilli lİder Heydər Əliyev böyük qayıdışı ilə respublikamızı uçurumdan qurtardı, möhtərəm Prezidentimiz cənab İlham Əliyev isə bu ölkəni tarixinin ən qüdrətli dövlətinə çevirdi və hazırda Azərbaycan hərtərəfli inkişaf üzərində qurulmuş ölkə kimi gələcəyə doğru yolunu inamla davam etdirir.

İlqar Abbasov vurğulamışdır ki, ulu öndər Heydər Əliyevin ideyalarının gerçəkləşməsində Prezident İlham Əliyevlə birgə fəal iştirak edən Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da müstəsna xidmətləri vardır. Bu günlərdə fəaliyyətə başlamasının 15 illiyi qeyd edilən adıçəkilən fond Mehriban xanım Əliyevanın rəhbərliyilə ümummilli liderin zəngin dövlətçilik irsinin təbliğində, Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında, milli-mənəvi dəyərlərimizin, ölkəmizdə gedən inkişafın dünyaya təqdim olunmasında müstəsna xidmətlər göstərir.

Konfransda çıxış edən Milli Məclisin deputatları Sevinc Fətəliyeva, Ağacan Abiyev, YAP rayon təşkilatının sədri Vüqar Seyidov qeyd etmişlər ulu öndər Heydər Əliyevin adı Azərbaycan xalqının rəmzinə, əməlləri isə hünər timsalına çevrilmişdir. Həyat və fəaliyyəti doğma xalqına və torpağa məhəbbət, sədaqət meyarı olmuşdur.

Sonda Heydər Əliyevin zəngin irsinin öyrənilməsi məqsədilə Suraxanı Rayonu Heydər Əliyev Mərkəzində rayonun tam orta məktəblərində təhsil alan 9-11-ci sinif şagirdlərinə "Heydər Əliyev və müasir Azərbaycan tarixi" mövzusunda keçirilən açıq dərslərin tədrisində fərqlənən müəllimlər RİH başçısının Fəxri fərmanı ilə təltif olunmuşlar. Ulu öndərin anadan olmasının 96-cı ildönümü münasibətilə məktəblilər arasında keçirilmiş rəsm müsabiqəsində fərqlənən şagirdlərə isə təşəkkürnamə təqdim edilmişdir.

Sonda YAP sıralarına yeni daxil olmuş bir qrup gəncə partiyanın üzvlük vəsiqəsi təqdim olunmuşdur.

***V.BAYRAMOV,***
***"Xalq qəzeti"***

**Son günlər Ermənistanda etiraz aksiyalarının miqyası getdikcə genişlənir. Sabiq prezidentlər Robert Koçaryanın həbsdən azad edilməsi və Serj Sarkisyanın Azərbaycanın işğal olunmuş ərazisinə -- Dağlıq Qarabağa qanunsuz səfəri və səfər çərçivəsində separatçı rejim tərəfindən baş nazir Nikol Paşinyana nisbətən hörmətli qarşılanması qarşıdurmanı dərinləşdirib. Digər tərəfdən, N.Paşinyanın verdiyi vədlərin heç birini yerinə yetirməməsi, işğalçı ölkənin xarici siyasətdə buraxdığı səhvlər, ölkədə aclıq və səfalətin, işsizliyin tüğyan etməsi, iqtisadi sahədə irəliləyişin nəzərə çarpmaması vəziyyəti daha da ağırlaşdırıb. Son vaxtlar ölkədə baş qaldıran etiraz aksiyalarının sayı getdikcə artır.**

# Ermənistandakı qarşıdurmalar mövcud hakimiyyət üçün yaxşı heç nə vəd etmir

Bu günlərdə Fransa məhkəmələrində Qarabağdakı separatçı rejimlə bu ölkənin şəhərləri arasında imzalanmış dostluq xartiyalarının ləğv edilməsi işğalçı ölkədə siyasi böhranı daha da dərinləşdirirb. Bundan sonra Ermənistanda və erməni lobbisində ciddi narahatlıq yaranıb. Artıq Nikol Paşinyanın siyasi kursunun iflasa uğradığı özünü açıq şəkildə büruzə verir. Etirazçılar artıq baş nazirin hakimiyyətinin sona çatdığını bildiriblər. Yerli politoloqlar hesab edirlər ki, Ermənistanın beynəlxalq aləmdə küncə sıxışdırılmasının əsas səbəbi, ilk növbədə, Azərbaycanın münaqişəni beynəlxalq hüququn normalarına uyğun olaraq hüquqi müstəviyə çıxarması və bu istiqamətdə fəal iş aparmasıdır. Digər tərəfdən, onu da etiraf etməyə məcburdular ki, Fransada erməni lobbisi nə qədər güclü olsa belə, ATƏT Minsk qrupunun həmsədri kimi Fransa neytrallıq saxlamağa məcburdur.

Əslində, Fransanın bəzi şəhər merlərinin və bələdiyyə rəhbərlərinin Azərbaycanın işğal altında olan ərazilərində "Dostluq haqqında xartiya" imzalamaları həm beynəlxalq hüququn normalarına, həm də Fransanın qanunlarına zidd idi. Həmçinin bu, elə kobud beynəlxalq qanunvericilk pozuntusudur ki, heç bir, hətta müstəqil olmayan məhkəmə belə ona bəraət qazandıra bilməzdi.

Xatırladaq ki, Fransa məhkəmələrinin Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazilərində yaradılan qondarma "Dağlıq Qarabağ respublikası" ilə imzalanmış sənədlər -- əvvəlcə Serji-Pontuaz məhkəməsinin qərarı ilə Arnuvil şəhərinin qondarma Dağlıq Qarabağdakı şəhər inzibati bölgəsi ilə "Dostluq haqqında xartiya"sı ləğv edildi. Eyni qərarla Arnuvil şəhəri ilə Azərbaycanın işğal altında olan



Xocavənd rayonu arasında imzalanmış "dostluq xartiyası" da ləğv edildi. Daha sonra Qrenobl Məhkəməsi eyni xarakterli 4 "dostluq xartiyası"nı ləğv etdi.

Ermənistan üçün ağır zərbə olan bu qərarlardan sonra İrəvanda vəziyyət daha da pisləşdi. Xüsusilə, bunun digər Avropa ölkələri üçün presedent olacağı qorxusu ciddi çaxnaşma yaratdı. Fransa məhkəmələrinin qərarlarının Ermənistan parlamentində müzakirəyə çıxarılması da bundan xəbər verir.

Müzakirələr zamanı Fransa məhkəmələrinin bu qərarları qəbul etməsində Ermənistan hakimiyyətinin, xüsusilə Xarici İşlər Nazirliyinin fəaliyyəti kəskin tənqid olunub və Azərbaycan diplomatiyası qarşısında məğlubiyyətə uğradıqlarını etiraf ediblər. Deputatlar bu qərarların qəbul edilməsini indiki iqtidarın fəaliyyətsizliyinin nəticəsi kimi dəyərləndiriblər. Eyni zamanda, Azərbaycanın beynəlxalq aləmdə, xüsusilə ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərindən biri olan Fransada genişmiqyaslı iş apardığını etiraf ediblər. Ermənistan hakimiyyətinin rəhbərlərinin isə bu fəaliyyətin qarşısında aciz qaldıqlarını bildiriblər. Nəticə isə göz önündədir.

Parlamentdə çıxış edən deputatlar həyacanlarını gizlədə bilməyiblər və bildiriblər ki, bu qərarlar Ermənistana baha başa gələcək və Avropa İttifaqının üzv ölkələrinin digər şəhərlərində də belə qərarların qəbul ediləcəyi ehtimalından qorxuya düşüblər. Deputatlar bildiriblər ki, burada yalan məlumatlarla xalqı sakitləşdirməyə çalışan dövlət rəsmiləri unutmamalıdırlar ki, Ermənistanın Fransanın müstəqil məhkəmələrinin qərarlarını dəyişdirməyə heç bir gücü yoxdur.

Fransa Milli Assambleyasının (Parlament) xarici işlər üzrə komissiyasının və Fransa --Azərbaycan dostluq qrupunun üzvü, deputat Jerom Lamberin bir neçə ay əvvəl verdiyi müsahibəsində "Azərbaycanlılar Ermənistanın işğalı nəticəsində öz torpaqlarından qovulublar" – deməsi Ermənistana ciddi zərbə olmuşdu. Fransalı deputat müsahibəsində bildirmişdi ki, Fransada Azərbaycanın Dostları Assosiasiyasının təşəbbüsü və təşkilatçılığı ilə Azərbaycanda qaçqın və məcburi köçkünlərlə görüşlər keçirdik: " Bu insanlar Ermənistanın işğalı nəticəsində öz torpaqlarından qovulublar. Onlar öz dədə-baba yurdlarına qayıtmaq arzusundadırlar. Onlar bunu bütün varlıqları ilə arzulayırlar və bu da təbiidir. Məqsədimiz vəziyyəti yerində öyrənmək idi. Adama uzaqdan elə gələ bilər ki, üstündən 25 il keçib və hər şey unudulub gedib, onlar vəziyyətləri ilə barışıblar. Lakin bu, heç də belə deyil. Onların əksəriyyətinin yeganə arzusu geri, Qarabağa dönməkdir. Bu səfər mənə həmin reallığı anlamaq imkanı verdi. Rast gəldiyimiz məcburi köçkünlər arasında düşərgədə yaşayanlar, səfil həyat sürənlər olmasa da, çətin vəziyyətdə yaşayanlara da, nisbətən rahat həyat tərzi olanlara da rast gəldik. Bu insanları görmək çox təsirli idi".

Fransalı deputat öz ölkəsinin bəzi şəhərlərinin merləri və bələdiyyə rəhbərlərinin qondarma "Dağlıq Qarabağ Respublikası"nın şəhərləri arasında imzalanan "dostluq xartiya"larını da qeyri-qanuni adlandırmış və sənədlərin imzalanmasının heç bir əsası olmadığını bildirmişdi: "Belə "dostluq xartiya" larından çox imzalanmayıb, hətta cəmi üst-üstə bir neçə dənədir. Qanunda bir boşluq olduğu üçün onların imzalanmasını qadağan edə bilmirik. Lakin şəhərlər arasında qardaşlaşmanın departament rəhbərlərininin icazəsi ilə həyata keçirildiyi üçün qarşısını almaq mümkün olub". Ardınca Fransa məhkəmələrinin bu xartiyaları ləğv etməsi işğalçı dövlətə daha bir zərbə oldu.

Bütün bunlar bir daha təsdiqləyir ki, Azərbaycan həm hüquqi müstəvidə, həm də beynəlxalq siyasi və iqtisadi təsir imkanları vasitəsilə istənilən qeyri-qanuni, antiazərbaycan xarakterli addımların qarşısını almağa qadirdir. Son illər Azərbaycanla Fransa arasında dostluq əlaqələrinin gücləndirilməsi, siyasi və iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi, xüsusilə, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu ölkəyə səfərləri zamanı apardığı danışıqlar, keçirdiyi tədbirlər öz bəhrəsini verir. Bütün bunlar Prezident Emmanuel Makron başda olmaqla Fransa hakimiyyətinin mövqeyinə öz təsirini göstərməyə bilməzdi.

Hazırda Ermənistan çaşqınlıq içərisindədir. Bir tərəfdən, baş nazir Nikol Paşinyanın idarəetmədəki səhvləri, xarici siyasətdəki uğursuzluğu, digər tərəfdən də işğalçı ölkənin beynəlxalq aləmdə küncə sıxışdırılması, həmçinin daxili qarşıdurmanın getdikcə dərinləşməsi indiki hakimiyyətin sonunu daha da yaxınlaşdırır .

***Əliqismət BƏDƏLOV,***
***"Xalq qəzeti"***

# IDEA ilə Ümumdünya Turizm Təşkilatı arasında Anlaşma Memorandumu imzalanıb



**İyunun 17-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın BMT-nin Ümumdünya Turizm Təşkilatının (ÜTT) baş katibi Zurab Pololikaşvili ilə görüşü olub.**



Görüşdə IDEA və ÜTT arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Anlaşma Memorandumu tərəflər arasında gələcək fəaliyyət çərçivəsini və əməkdaşlıq sahələrini müəyyənləşdirir. Sənədə əsasən, hər iki təşkilat turizmin ekoloji dayanıqlığa təsir edən amillərdən biri kimi təşviq edilməsi istiqamətində birgə səylər göstərəcək.

İmzalanma mərasimindən sonra Leyla Əliyeva ilə Zurab Pololikaşvili arasında ikitərəfli görüş keçirilib. Görüşdə Leyla Əliyeva ÜTT tərəfindən dünyada turizmin inkişafının əlaqələndirilməsi istiqamətində aparılan fəaliyyəti yüksək qiymətləndirərək, turizm sektorunun inkişafının planetin dayanıqlı gələcəyi üçün əhəmiyyətini vurğulayıb. Leyla Əliyeva zəngin mədəni irsi və müasir infrastrukturu ilə yanaşı, Azərbaycanda bol təbii sərvətlər və rəngarəng coğrafi landşaftın mövcud olmasını qeyd edərək, həyata keçiriləcək birgə layihələrin ölkədə ekoturizmin inkişafına böyük töhfə verəcəyindən əminliyini vurğulayıb.

Zurab Pololikaşvili rəhbərlik etdiyi təşkilat ilə IDEA arasında əməkdaşlığın qurulmasından məmnunluğunu bildirərək, Azərbaycanın cəlbedici turizm məkanı kimi potensialının inkişaf etdirilməsi üçün geniş imkanların olduğunu qeyd edib.

Tərəflər Azərbaycanda və regionda birgə layihələrin həyata keçirilməsi və beynəlxalq tədbirlərin təşkili perspektivlərini müzakirə ediblər.

*AZƏRTAC*

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva BMT-nin xoşməramlı səfiri Vyaçeslav Fetisovla görüşüb



**İyunun 17-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva ilə ölkəmizdə səfərdə olan BMT Ətraf Mühit Proqramının (UNEP) xoşməramlı səfiri, əfsanəvi xokkeyçi Vyaçeslav Fetisov arasında görüş olub.**

Görüşdə ətraf mühitin mühafizəsi, iqlim dəyişikliyi ilə mübarizə və davamlı inkişaf məsələləri, bununla əlaqədar yerli və regional səviyyədə görülən işlər və irəli sürülən təşəbbüslər, xüsusən də Xəzər dənizinin bioloji resurslarının mühafizəsinə yönəlmiş səylər müzakirə edilib.

Leyla Əliyeva IDEA-nın son illər əldə etdiyi nailiyyətləri, hazırda həyata keçirilən layihələri və gələcək planları haqqında BMT rəsmisinə məlumat verib.

Tərəflər, həmçinin ətraf mühit və davamlı inkişaf məsələləri üzrə BMT-nin xoşməramlı səfirləri qismində həyata keçirdikləri fəaliyyət və əməkdaşlıq perspektivləri ətrafında fikir mübadiləsi aparıblar.

*AZƏRTAC*

# XİN: Ermənistan rəhbərliyinin məntiqini anlamaq çətindir

**Ermənistan Müdafiə Nazirliyi Dağlıq Qarabağda 10 min nəfərlik silahlı qüvvənin iştirakı ilə hərbi təlimlər keçirdiyini bəyan edib. Azərbaycanın Xarici İşlər Nazirliyi bu məsələyə münasibət bildirib.**

Nazirliyin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayevanın açıqlamasında deyilir: "Ermənistanda müharibə tərəfdarlarının qələbə çaldığına inanmaq istəməzdim. Çünki bu dalana aparan bir yoldur. Xüsusilə də ATƏT-in Minsk qrupunun həmsədrlərinin təklifi əsasında iki ölkənin xarici işlər nazirlərinin Vaşinqtonda keçiriləcək görüşü ərəfəsində Ermənistan tərəfinin bu addımları anlaşılmazdır.

Həqiqətən, Ermənistan rəhbərliyinin məntiqini anlamaq çətindir. Bir tərəfdən müdafiə naziri Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ ərazisində 10 min hərbi qulluqçunun iştirakı ilə hərbi təlimlərin keçiriləcəyini bəyan edir, digər tərəfdən isə bu ölkənin xarici işlər naziri Vaşinqtonda münaqişənin sülh yolu ilə həlli üzrə danışıqlar aparmağa hazırlaşır. Belə olan halda Ermənistan rəhbərliyi öz hərəkətlərinin məntiqi izahını verə biləcəkmi? İstər-istəməz Rusiya, ABŞ və Fransadan olan həmsədrlərə "bundan sonra nə?" sualı ilə müraciət etməli oluruq".

# Neftçaladakı Xıllı nərə balıqartırma zavodunda yetişdirilmiş körpə nərə balıqlarının Xəzərə buraxılması mərasimi olub

## *Mərasimdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib*



**İyunun 17-də Xəzər dənizinin ekoloji mühitinin yaxşılaşdırılması üzrə IDEA İctimai Birliyinin və Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşlığı çərçivəsində Neftçalada yerləşən Xıllı nərə balıqartırma zavodunda yetişdirilmiş körpə nərə balıqlarının suya buraxılması mərasimi keçirilib.**



Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev və BMT Ətraf Mühit Proqramının xoşməramlı səfiri, əfsanəvi xokkeyçi Vyaçeslav Fetisov iştirak ediblər.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Xıllı nərə balıqartırma zavodu 2003-cü ildə istismara verilib. Bu zavod Xəzər regionunda ən iri nərə balıqartırma müəssisəsidir. Burada bölgə, nərə, kələmo və uzunburun kimi nərə cinsli balıq növləri artırılaraq Kür çayının mənsəbinə buraxılır. Zavodun istehsal gücü ildə 15 milyona qədər nərə balıq körpələridir. Ümumi sahəsi 15 hektar olan zavodda 4 nohur, 54 beton hovuz var.

Müəssisə ilə tanışlıqdan sonra Xıllı nərə balıqartırma zavodunda yetişdirilmiş körpə nərə balıqlarının suya buraxılması mərasimi oldu.



Mərasimdə iştirak edən BMT Ətraf Mühit Proqramının xoşməramlı səfiri, əfsanəvi xokkeyçi Vyaçeslav Fetisov jurnalistlərə müsahibəsində dedi: "Hər dəfə Azərbaycana gələndə təəssürat içində oluram. Bu gün mənim üçün daha bir səhifə açılıb. Leyla xanım Əliyeva ekologiya problemi ilə kifayət qədər çoxdan və ciddi məşğul olur. O, aydın başa düşür ki, Yer üzündə ən böyük sərvət insandır. İnsan isə yalnız ekologiyanın normal olduğu yerdə, normal təbii şəraitdə salamat qala bilər. Odur ki, bu işlə məşğul olur. Əlbəttə, bu, Birləşmiş Millətlər Təşkilatında təbiəti mühafizə ilə məşğul olan təşkilatın səfiri kimi məni çox sevindirdi. Bu problemlə getdikcə daha çox məşğul olduğum üçün deyə bilərəm ki, indi bu, ən başlıca məsələdir".

Qeyd edək ki, son onilliklər ərzində Xəzər dənizinin nadir balıq növlərinin populyasiyaları insan fəaliyyətinin mənfi təsirləri, çirklənmə, qaçaqmalçılıq və həddən artıq ovlanma nəticəsində məhvolma təhlükəsi həddinə çatıb. Problemin hərtərəfli həlli məqsədilə IDEA İctimai Birliyi tərəfindən Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Böyük Britaniyanın "Mavi Dəniz Fondu" (BLUE) ilə birlikdə müxtəlif mühafizə, bərpa və ictimai maarifləndirmə tədbirləri həyata keçirilir.

*AZƏRTAC*



# “Sarsılmaz qardaşlıq” və sarsılan Ermənistan: hərbi təlimlərdən titrəyən düşmən

**Ermənilər yeni bir təlaşa qapılıblar. Onlar iyun ayının 7-11-də Naxçıvanda keçirilmiş Azərbaycan-Türkiyə birgə hərbi təlimlərini şərh edərkən absurd ifadələr işlədirlər. Açıq hiss edilir ki, iki qardaş ölkənin getdikcə daha da artan gücü qarşısında Ermənistan zavallı vəziyyətə düşür. Azərbaycan bütün sahələrdə inkişaf etdikcə, Ermənistan narahat olur və böhtanlar yağdırmağa girişir. Ayrıca, ordumuz hərbi gücünü nümayiş etdirəndə erməni tərəfi özünü itirir. “Sarsılmaz qardaşlıq” hərbi təlimlərinə də eyni reaksiya oldu. İş o yerə çatıb ki, Ermənistan rəhbərliyi Rusiyaya müraciət edərək türklərə hansısa cavab verməyin lazım olduğundan bəhs edib. Bu sırada Ermənistan–Yunanıstan–Kipr “sivil platforması” kimi absurd və mənasız bir ifadəni belə işlətməkdən utanmayıblar. Ermənistanın “sivilliyi” qətlə yetirilən günahsız insanların qanlarında əks olunub. Ondan başqa ermənilərin “sivilliyi”ni sübut edən fakt yoxdur. Son olaraq Azərbaycanda təlim keçən zabitin alçaqcasına və qorxaqcasına qətlə yetirilməsi erməni “mədəniliyi”, “sülhsevərliyi” və “sivilliyi”nin nümunəsidir. Əlbəttə, onların apatiyalarının səbəbi aydındır: Azərbaycan daha güclü olur və öz ərazi bütövlüyünü bərpa etməyə çox yaxındır. Bütün bunların fonunda regionun geosiyasi mənzərəsi üzərində geniş dayanmağa ehtiyac duyuruq.**

### *“Yardım edin”: rəsmi İrəvan kimə yalvarır?*

Ermənistanın xarici siyasəti həmişə reallıqdan uzaq olub, qeyri-konstruktiv və əsassız prinsiplərə əsaslanıb. Son zamanlar bu tendensiya daha da güclənib. Nikol Paşinyanın özündən əvvəlki rəhbərlərdən fərqi daha da sözbaz olmasındadır. Onun fəaliyyəti ancaq sözlərdən ibarətdir. Onların heç birinin yerinə yetirilmədiyi də göz qabağındadır. Məsələn, ölkədə heç bir real iqtisadi islahat aparılmır. Xaricdən sərmayə sıfır səviyyəsindədir. Korrupsiya və vətənə xəyanət adı altında həbs etdiklərini Kreml bir işarə ilə azadlığa çıxarır. N.Paşinyan hirslənib bütün məhkəmə sistemini dəyişəcəyini deyir, lakin yenə də ağzına elə vururlar ki, indi Dilicanda “XXI əsr erməni əsridir” kimi absurd şüarla adamların başını qatır.

Xarici siyasətdə Dağlıq Qarabağdakı terrorçu-separatçıları danışıqlar prosesinə qoşmaq kimi əsassız bir iddia ilə özünü ortaya atdı. ATƏT-in Minsk qrupunun həmsədrləri də daxil olmaqla hər kəs qarşısını kəsdi. Bir sıra ölkələrə səfər edən N.Paşinyan sözdən başqa bir şey gətirə bilmədi. İndi də Dağlıq Qarabağla bağlı yeni söz oyununa başlayıblar.

Öncə onu vurğulayaq ki, ermənilər müxtəlif istiqamətlərdə Azərbaycan üçün problemlər yaratmağa cəhdlər göstərdilər. Gürcüstanda “Keşikçidağ” məbədi ilə bağlı qaldırılan hay-küy də təsadüfi deyildi. Sonra Türkiyəyə qarşı Avropada müəyyən cəhdlər edildi. Hətta İstanbulun adını dəyişməkdən belə danışdılar, öz bayraqlarının şəklini müxtəlif plakatlara çəkdilər. Ankara elə sərt cavab verdi ki, bunların heç birindən əsər-əlamət qalmadı. Ondan sonra Bakıda futbol matçı haqqında mənasız iddialar ortaya atmağa çalışdılar. Azərbaycan bu informasiya təxribatını da yerlə-yeksan etdi. Rəsmi Bakı ona qarşı aparılan informasiya təxribatlarının fərqində olduğunu açıq bəyan etdi. Bütün bunlar ermənilərin nə dərəcədə primitiv və aciz olduqlarını aydın göstərir. Bundan əlavə, Ermənistandan fərqli olaraq, Azərbaycan konkret əməli addımları ilə real tərəqqidə olduğunu nümayiş etdirməkdədir.

Bu, “Sarsılmaz qardaşlıq-2019” hərbi təlimlərinin fonunda daha aydın özünü büruzə verir. Təlimlərdə iki qardaş ölkənin hərbçiləri koordinasiyalı, peşəkar və yüksək əhval-ruhiyyədə hərəkət edə biləcəklərini nümayiş etdirdilər. Bunlara erməni “ekspertləri” elə çaşqın reaksiya verdilər ki, hətta Amerika, İran və Rusiyanı belə ortaya qatmağa çalışdılar, iki türk dövlətinin İranla yaxınlıq edərək regionda Qərbə ziyan verəcəyi haqqında əsassız iddia irəli sürdülər. Amma hamı yaxşı bilir ki, İran-Ermənistan münasibətləri necədir və kim kiminlə hansı oyunu aparır.

Burada əlbəttə ki, erməniləri qorxuya salan əsas olaraq Azərbaycanın sürətli inkişafı və hərbi sahədə Türkiyə ilə əməkdaşlığı dərinləşdirməsidir. Lakin hamıya aydındır ki, bu prosesi Azərbaycan ancaq özünümüdafiə imkanlarını artırmaq, ərazi bütövlüyünü bərpa etmək və regionda sabitliyi qorumaq naminə edir. Onun kimsənin torpağında gözü yoxdur. Əksinə, Azərbaycan torpaqlarında gözü olan naqislərin əl-ayağını kəsməyə çalışır.

### *Regiona təhlükə: atılan güllələrin geosiyasi əks-sədası*

Ermənistan bütün bu proseslərdən o qədər ehtiyat edir ki, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan danışıqları dalana dirəmək niyyətindən əl çəkmir. Həmsədrlərin regiona səfəri zamanı Azərbaycan zabitinin qətlə yetirilməsi bunu təsdiq edən faktlardandır. Daha sonra isə Ermənistanın müdafiə naziri David Tonoyan həyasızcasına azərbaycanlı əsgəri şəhid edən erməni silahlı quldurlarını təltif etdiyini bəyanlayır. Və bu kimi vəhşi hərəkətlər bir sıra erməni ekspertlərinin Ermənistan-Yunanıstan-Kipr “sivil platforması” haqqında sayıqlamaları fonunda baş verir. Deməli, onlar sağlam düşüncəni o dərəcədə itiriblər ki, atdıqları addımların bir-birinə uyğun olub-olmamasını hesablaya bilmirlər. Əslində, erməni siyasi-ideoloji şüuru həmişə bu cür ziddiyyətlərlə dolu olub.

Ermənistan rəhbərliyinin ATƏT-in Minsk qrupu həmsədrlərinin bölgəyə səfərinə bu cür reaksiya verməsi onu göstərir ki, rəsmi İrəvan danışıqların davam etməsində və konkret addımlar atılmasında maraqlı deyil. Bu, indiki erməni hakimiyyətinin əsl simasını açdı. Görünür, Ermənistan və havadarları vəziyyəti qeyri-müəyyənlikdə saxlamaqdan başqa yol görmürlər. Çünki bütün arqumentlər Azərbaycanın haqlı olduğunu göstərir.

Ermənistanın bu mövqeyi regionda kifayət qədər təhlükəli vəziyyət yarada bilər. Burada müharibə riski artır. Ekspertlər hesab edirlər ki, hansısa məqamda regionda hərbi əməliyyatlar başlaya bilər. Sirr deyil ki, Cənubi Qafqazın qarışmasında maraqlı olan siyasi-hərbi dairələr də mövcuddur. Onları daha çox Azərbaycandakı sabitlik və inkişaf narahat edir. Bütün regional layihələr Azərbaycanla bağlıdır. Ermənistan isə təcrid vəziyyətindədir. Belə çıxır ki, suyun bulandırılması daha çox Azərbaycanın iştirak etdiyi layihələrə ziyan vura bilər.

Lakin məhz Azərbaycan təcavüzə məruz qalıb. Onun ərazisinin 20 faizi işğal altındadır. Ölkənin ərazi bütövlüyü mütləq bərpa olunmalıdır. Və bunun qarşısını heç bir güc və ya şərtlər kəsə bilməz. Bu səbəbdən münaqişənin danışıqlar yolu ilə ədalətli həllində böyük güclərin də marağı olmalıdır.

Əlbəttə, Ermənistanın regionda geosiyasi mənzərəni qeyri-müəyyənliyə salmasının qarşısını asanlıqla almaq olar. Bunun üçün Minsk qrupunun həmsədrləri Ermənistandan tələb etməlidirlər ki, qəbul olunmuş sənədlərin müddəalarına əməl etsin. Lakin həmsədrlər nəinki bunu edirlər, hətta müxtəlif üsullarla təcavüzkara dəstək belə verirlər. Təəssüf ki, bu, faktdır və vəziyyət hələ də hiss ediləcək dərəcədə dəyişməyib. O halda deyə bilərik ki, regionda münaqişələrlə bağlı geosiyasi vəziyyətin qeyri-müəyyən olmasında Ermənistanla yanaşı, həmsədrlərin fəaliyyətinin səmərəsizliyi də rol oynayır.

Bu məqamın regiondakı duruma təsiri isə daha çox dərəcədə mənfi ola bilər. Çünki qlobal miqyasda geosiyasi güc mərkəzlərinin qarşıdurması daha da kəskinləşib. Hər şeydən əvvəl ABŞ-Rusiya münasibətləri xeyli gərgindir. Onlar dünyanın müxtəlif regionlarında sərt şəkildə mübarizə aparırlar. Hətta silah tətbiqindən belə çəkinmirlər. Digər riskli faktor ABŞ-İran münasibətləri ilə bağlıdır. Bu məqam hazırda daha təhlükəli görünür. Amerika ilə İran bir-birinə hərbi güc tətbiq etməkdən bəhs edirlər. Eyni zamanda, İranda daxili sosial-iqtisadi vəziyyət son dərəcə ağırlaşıb. Orada etiraz dalğası getdikcə artır. Əgər İranda sabitlik pozulsa, onda ətraf ölkələrə onun mənfi təsiri özünü göstərə bilər. O halda Azərbaycana qarşı da təxribatların törədilməsi cəhdləri istisna edilmir.

Onu da vurğulayaq ki, ABŞ-Avropa münasibətləri də ciddi risklərlə xarakterizə olunur. Ayrıca, Vaşinqton-Paris xəttində mövcud olan gərginliklər məlumdur. Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində bunun nə dərəcədə əks olunacağı hələ məlum deyil. Burada Ukrayna məsələsində ABŞ –Aİ – Rusiya “üçbucağı”nda özünü göstərən təhlükələri də unutmaq olmaz.

Bütün bu müqayisələr onu göstərir ki, bir sıra böyük dövlətlər arasındakı gərgin münasibət Ermənistandan qaynaqlanan risklərlə birgə Cənubi Qafqazı yeni risk zonasına ata bilər. Bundan ancaq region dövlətlərinin zərər görəcəyini düşünmək sadəlövhlükdür. Əksinə, proses zəncirvarı olaraq daha geniş məkana yayıla bilər. Bunun proqnozlaşdırılması elə də çətin məsələ deyil. Ancaq, deyəsən, müəyyən dairələrə elə bu cür gedişat sərf edir. Ona da şübhə yoxdur ki, həmin vəziyyət heç bir xalqa sərf etmir!

**NEWTİMES.AZ**

---

## Ermənistanın qeyri-konstruktiv mövqeyi davamlı sülhə təhdid kimi qalır



**Ermənistanın heç bir çərçivəyə sığmayan mövqeyi sülh əldə etməyə imkan vermir. Bu qeyri-konstruktiv mövqe davamlı sülh, birgə yaşayışa təhdid kimi qalır.**

Bunu Milli Məclis sədrinin müavini Bahar Muradova “Ədalətli sülh və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında Ombudsmanların rolu” mövzusunda keçirilən Ombudsmanların XVI Bakı Beynəlxalq Konfransında çıxışı zamanı deyib.

Milli Məclis sədrinin müavini qeyd edib ki, sülh olmadan davamlı inkişafa nail olmaq mümkünsüzdür: “Azərbaycan daim bu istiqamətdə beynəlxalq ictimaiyyəti bir araya gətirmək və yeni təsisatlar yaratmaq istiqamətində təşəbbüslər göstərir. Bu tədbirlərin Cənubi Qafqaz regionunda keçirilməsi təsadüfi deyil. Çünki bu regionda münaqişə ocaqları var. Bu münaqişələrin həll olunmaması və münaqişə tərəflərindən birinin qeyri-konsturiktiv mövqeyi sülh əldə etməyə imkan vermir”.

B.Muradova əlavə edib ki, həm mövcud təsisatların gücündən tam istifadə etmək, həm də yeni təsisatlar yaratmaqla problemlərin həllinə nail olmaq lazımdır: “Artıq 16-cı dəfədir ki, ombudsmanlar vacib olan mövzular ətrafında müzakirə aparmaq üçün Azərbaycana toplaşırlar. Bu tədbir problemlərin araşdırılması, ombudsman təsisatının bu problemlərin həllində rolunun müəyyənləşməsi və müsbət təcrübələrin bölüşülməsinə şərait yaradır. Azərbaycan belə təcrübələrin aparılması üçün çox uyğun bir məkandır”.

*“Xalq qəzeti”*



---



## ABŞ Ümumdünya Turizm Təşkilatına qayıdacağını bəyan edib

**Bakıda keçirilən Ümumdünya Turizm Təşkilatının İcraiyyə Şurasının 110-cu sessiyasında dünyanın 5 qitəsindən 40 ölkənin nümayəndələri iştirak edib.**

İyunun 16-18-də Bakıda keçirilmiş Ümumdünya Turizm Təşkilatının İcraiyyə Şurasının 110-cu sessiyasının yekunları ilə bağlı keçirilən mətbuat konfransında Ümumdünya Turizm Təşkilatının baş katibi Zurab Pololikaşvili bildirib ki, tədbir iştirakçılarına Azərbaycanda qalmağı, mədəniyyəti ilə tanış olmağı, mətbəxini dadmağı tövsiyə edib: “Azərbaycan neft istehsal edən dövlət kimi bu potensialı ölkənin turizm məkanına çevrilməsi üçün istifadə edib. Azərbaycan daha böyük beynəlxalq tədbirləri keçirməyə hazırdır”.

Z.Pololikaşvili qeyd edib ki, Bakıda keçirilən tədbirə ABŞ-dan böyük nümayəndə heyəti qatılıb: “23 il əvvəl ABŞ Ümumdünya Turizm Təşkilatını tərk edib, nümayəndə heyəti təmsil etdiyi ölkənin Ümumdünya Turizm Təşkilatına qayıdacağını elan etdi. Bizim ABŞ-ın dəstəyinə böyük ehtiyacımız var”.

*“Xalq qəzeti”*

---

## 5 aya 5 milyard manat investisiya




**2019-cu ilin yanvar-may aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 5038,7 milyon manat vəsait yönəldilmiş, sərf edilmiş vəsaitin 68,4 faizini bilavasitə tikinti-quraşdırma işlərinin dəyəri təşkil etmişdir.**

Dövlət Statistika Komitəsindən aldığımız məlumatda bildirilir ki, ümumi sərmayənin 64,4 faizi məhsul istehsalı obyektlərinin, 26,9 faizi xidmət sahələri üzrə obyektlərin, 8,7 faizi isə ümumi sahəsi 771,7 min kvadratmetr olan yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsait ümumi sərmayənin 72,8 faizini təşkil etmişdir.

Əsas kapitala yönəldilmiş sərmayənin ümumi dəyərində müəssisə və təşkilatların vəsaitləri 58,1 faiz, büdcə vəsaitləri 27,3 faiz, bank kreditləri 6,7 faiz, əhalinin şəxsi vəsaitləri 6,2 faiz, büdcədənkənar fondların vəsaitləri 1,3 faiz, sair vəsaitlər isə 0,4 faiz təşkil etmişdir.

2019-cu ilin yanvar-may aylarında Bakı şəhərində Pirallahı Sənaye Parkında şpris istehsalı zavodu, DOST Agentliyinin və ilk DOST mərkəzinin inzibati binası, Qobustan rayonunda “Azərxalça” ASC-nin Qobustan filialı, Qobustan-Poladlı avtomobil yolu, Əmlak Məsələləri Dövlət Komitəsinin Əmlak Xidmətləri Məkanı, Mərdəkan-Qala avtomobil yolu, Sumqayıt şəhərində “SOCAR karbamid” zavodu, Polietilen zavodu, Beyləqan rayonunda Olimpiya İdman Kompleksi, Tarix-Diyarşünaslıq Muzeyi, Kəbirli-Eyvazalılar-Birinci Aşıqlı-Əlinəzərli və Mingəçevir-Stansiya, Mingəçevir-Bəhrəmtəpə-Beyləqan avtomobil yolları, bunlardan əlavə Naxçıvan Muxtar Respublikasında 1170 şagird yerlik 2 ümumtəhsil məktəb binası, 200 yerlik məktəbəqədər təhsil müəssisəsi, bir növbədə gəlişlərin sayı 35 nəfər olan 2 ambulatoriya-poliklinika müəssisəsi, Qobustan və Şəmkir rayonlarında 310 çarpayılıq 2 xəstəxana və s. mühüm əhəmiyyətli obyektlər istifadəyə verilmişdir.

***Samirə ƏLİYEVA,***
***“Xalq qəzeti”***

---

## İranda yeni aeroport terminalının açılışı olub



**İran Prezidenti Həsən Ruhani İmam Xomeyni aeroportunun “Salam” sərnişin terminalının açılışını edib.**



Bildirilir ki, 55 min kvadratmetr ərazidə yerləşən “Salam” sərnişin terminalı İmam Xomeyni aeroportunda sərnişin sayını ildə 5 milyon nəfər artıracaq. Beləliklə, bu aeroportun illik sərnişin qəbulu 13 milyon nəfəri keçəcək.

“Salam” terminalının açılışından sonra beş il ərzində İranşəhr terminalının ilk fazasının istismara verilməsi ilə İmam Xomeyni aeroportunun sərnişin qəbulu 25 milyon nəfəri ötəcək.

Qeyd edək ki, “Salam” terminalının inşası və istifadəyə verilməsi üçün təxminən 7 trilyon rial (təxminən 166 milyon dollar) vəsait xərclənib.

*“Xalq qəzeti”*

---



## Meksika sərhədə 6 min hərbçi yerləşdirdi




**ABŞ-a getmək istəyən immiqrantların qarşısını almağı hədəfləyən Mexiko şəhər rəhbərliyi Mərkəzi Amerika ölkələri ilə cənub sərhədinə hərbçilər yerləşdirib.**

Meksika Orta Amerika ölkələrindən keçərək ABŞ və Kanadaya getmək istəyən qeyri-qanuni miqrantlara qarşı mübarizəni gücləndirib.

Bu məqsədlə Meksika hökuməti 6 min nəfərlik milli qvardiya bölmələrini immiqrasiya məmurları ilə birgə bölgəyə yerləşdirib.

Qvardiyaçıların cənub sərhədində təqribən 800 miqrantı daşıyan bir qrup yük maşınını saxladığı bildirilir.

Qeyd edək ki, ABŞ Mərkəzi Amerika ölkələrindən ərazisinə doğru gələn köç axınını durdurmaq üçün sərhədindəki tədbirləri artırması üçün Meksikaya ciddi təzyiq göstərirdi.

*“Xalq qəzeti”*




## Fransa

### Mişel Platini həbs olunub



UEFA-nın sabiq prezidenti Mişel Platini səsvermənin nəticələrinin mümkün saxtalaşdırılması prosesində iştirakda şübhəli bilindiyinə görə həbs edilib.

Bildirilir ki, fransalı funksioner 2022-ci ildə Qətərdə keçiriləcək dünya çempionatı ilə bağlı korrupsiya araşdırmaları çərçivəsində Parisdə saxlanılıb və Nanterra polis şöbəsində nəzarətdədir.

**Xəbəri TASS yayıb.**

## ABŞ

### 400 milyon dollarlıq təyyarə



"Vulcan" holdinqi qanadlarının uzunluğuna görə dünyanın ən böyük təyyarəsi olan "Stratolaunch" 400 milyon dollara satışa çıxarıb. Qiymətə təyyarə, onunla əlaqədar əqli mülkiyyət, eləcə də yerüstü infrastruktur daxildir.

Bildirilir ki, təyyarənin qanadlarının uzunluğu 117 metrdir və bu göstəriciyə görə onun dünyada tayı-bərabəri yoxdur. Təyyarənin uzunluğu 72 metr, hündürlüyü 15 metr, çəkisi 226,8 ton, maksimal uçuş kütləsi isə 589,7 ton təşkil edir. Əvvəlcə uçuş-enmə zolağında sınaqları keçirilən "Stratolaunch" apreldə ilk dəfə havaya qalxıb.

Təyyarənin potensial alıcıları arasında kosmik şirkət sahibləri olan iş adamları İlon Mask, Ceff Bezos və Riçard Brensonun adı çəkilir.

**Xəbəri "NEWSru" yayıb.**

## Çexiya

### 63 milyon dollar uduş




"Eurojackpot" lotereyasında 63 milyon dollar dəyərində cek-pot udulub. Cek-potun sahibi Çexiya vətəndaşı olub. O, lotereyanın bütün 7 rəqəmini düz tapmağa müvəffəq olub.

Bildirilir ki, "Eurojackpot" lotereyasında qalib gəlmək şansı 95 milyonda birdir.

Qeyd edək ki, "Eurojackpot" lotereyası hər həftə Avropa İttifaqı ölkələrinin ərazisində keçirilir. Bir lotereyanın qiyməti 14 ABŞ dolları-dır.

**Xəbəri "Anadolu" agentliyi yayıb.**

## Litva

### Yol hərəkəti qaydalarında dəyişiklik



Litvanın Nəqliyyat və Kommunikasiya Nazirliyi yol hərəkəti qaydalarında dəyişiklik ediləcəyini açıqlayıb. Bildirilir ki, yeni qaydalara görə işıqforun yaşıl işığında yanıb-sönmə funksiyası ləğv ediləcək.

Qeyd edilir ki, buna səbəb ölkədə yol-nəqliyyat hadisələrinin sayının artmasıdır. Mütəxəssislər hesab edir ki, yanıb-sönən yaşıl işıq qəzaların sayının artmasına gətirib çıxarır. Yeni qaydalara əsasən, yaşıl işıqdan dərhal sonra hərəkəti qadağan edən sarı və qırmızı işıqlar yanacaq.

**Xəbəri RİA "Novosti" yayıb.**

**Hazırladı: Elçin ABBASOV, "Xalq qəzeti"**

# Putin və Berdiməhəmmədov iqtisadi əməkdaşlığı müzakirə ediblər

## Rusiya və Türkmənistan liderləri arasında telefon bağlantısı olub



**Rusiya Prezidenti Vladimir Putin türkmənistanlı həmkarı Qurbanqulu Berdiməhəmmədov ilə telefon danışığı zamanı iki ölkə arasında ticari-iqtisadi əməkdaşlığın perspektivlərini müzakirə edib. Bu barədə Kremlin mətbuat xidmətinə istinadən "Anadolu" agentliyi məlumat yayıb.**

Türkmənistan Rusiya Federasiyasının ayrı-ayrı regionları ilə də sıx iqtisadi əlaqələr qurmağı planlaşdırır. Yeri gəlmişkən, Prezident Q.Berdiməhəmmədov bu yaxınlarda Tatarıstana işgüzar səfər edəcək. Bu və digər regional məsələlər də müzakirə olunub.

Kremlin açıqlamasında həmçinin qeyd olunur ki, tərəflər iki ölkə arasında strateji əməkdaşlığı daha da gücləndirmək əzmindədirlər. Türkmənistan hazırda Müstəqil Dövlətlər Birliyinə sədrlik edir. Rəsmi Aşqabad bu təşkilat çərçivəsində Rusiya, eləcə də digər üzv ölkələr ilə hərtərəfli əlaqələri genişləndirməyə çalışır.

Türkmənistan Prezidenti rusiyalı həmkarını bu ilin avqustunda Türkmənbaşıda keçiriləcək Xəzər İqtisadi Forumuna hazırlıq ilə bağlı görülən işlər barədə də məlumatlandırıb. Telefon bağlantısı Türkmənistan tərəfinin təşəbbüsü ilə baş tutub.

Yeri gəlmişkən, bu il iyunun 28-də Türkmənistanın Axal vilayətində təbii qazdan benzin istehsal edən zavodun açılış mərasimi keçiriləcək. Dünyanın məşhur istehsalçılarının müasir avadanlıq və qabaqcıl texnologiyaları ilə təchiz edilmiş müəssisə bir çox parametrlərinə görə unikaldır. Burada dünya praktikasında ilk dəfə olaraq, təbii qazdan sənaye miqyasında sintetik avtomobil yanacağı istehsal ediləcək. Açılış mərasimində rusiyalı mütəxəssislərin də iştirakı gözlənilir.

***M.HACIXANLI, "Xalq qəzeti"***

# Ukrayna Prezidenti Fransada səfərdə olub



**Ukrayna Prezidenti Vladimir Zelenski Fransada həmkarı Emmanuel Makronla görüşdən sonra bəyan edib ki, "Normand dördlüyü" formatında danışıqları bərpa etmək lazımdır. Bu barədə TASS məlumat yayıb.**

Məlumata görə, Zelenski Donbasda vəziyyətin nizamlanması üzrə "Normand dördlüyü" (Rusiya, Fransa, Almaniya və Ukrayna) çərçivəsində fəaliyyət üçün şərtlərini də açıqlayıb. Onun sözlərinə görə, bunun üçün birinci dərəcəli vəzifə əsirlərin mübadiləsi, ukraynalı dənizçilərin qaytarılması, atəşin dayandırılması, qoşunların cəbhə xəttindən uzaqlaşdırılması və Luqanskda körpünün tikilməsidir.

"Bu addımlar, düşünürəm ki, çətin deyil, ancaq çox təcilidir və biz ən yaxın vaxtlarda bu məsələləri həll etməliyik. Yalnız bundan sonra "Normand formatı"na və münaqişənin həllinə qayıda bilərik", – deyə Zelenski bildirib.

Ukrayna prezidenti deyib ki, yaxın zamanlarda "Normand dördlüyü" ölkələrinin siyasi müşavirlərinin görüşü keçiriləcək. "Bizim müşavirlər görüşün hazırlanması məqsədilə bir araya gələcəklər".

Zelenski qeyd edib ki, nəzarətdən çıxmış ərazilərin Kiyevin sərəncamına qaytarılması dövlət başçısı və sadəcə insan kimi onun əsas prioritetidir. Ancaq Donbasda vəziyyət hərbi yolla nizamlana bilməz. "Yeganə açar diplomatik və sanksiya təzyiqidir. Biz Qara və Azov dənizlərində, Kerç boğazında təhlükəsizliyi təmin etmək üçün bundan sonra da NATO üzvü olan ölkələrlə əməkdaşlığı davam etdirəcəyik".

Bununla yanaşı, o bildirib ki, Kiyev Donetsk və Luqansk rəhbərliyi ilə danışıqlara hazır deyil. Amma Minsk formatında fəaliyyətə və atəşi dayandırmağa hazırdır.

Xatırladaq ki, Zelenski iyunun 17-də Fransa Prezidenti Emmanuel Makron, dünən isə Almaniya Kansleri Angela Merkellə görüşüb.

***Paşa ƏMİRCANOV, "Xalq qəzeti"***

# İki milyon insan etiraz aksiyasına çıxıb

❒ ***"Anadolu" agentliyinin məlumatına görə, Çində ekstradisiya haqqında qanunun tətbiqindən sonra etiraz aksiyaları genişlənməyə başlayıb. Bildirilir ki, Çinin xüsusi inzibati rayonu olan Honkonqda iki milyona yaxın etirazçı küçələrə çıxıb.***




Polisdən verilən məlumatda bildirilib ki, ilkin marşrut üzrə 338 min insan hərəkət edib. Həmçinin təşkilatçılar iddia edirlər ki, ümumilikdə iki milyona yaxın etirazçı olub.

Eyni zamanda qeyd olunur ki, nümayişlərin hökumət ekstradisiya haqqında qanunu tam olaraq geri götürməyincə, həbs olunmuş etirazçıları azad etməyincə və onların üzərindəki ittihamı ləğv etməyincə, eləcə də, baş katib Kerri Lemi istefaya getməyə məcbur etməyincə davam edəcəyini bildiriblər.

***Rövşən ATAKİŞİYEV, "Xalq qəzeti"***

# Çində iki güclü zəlzələ



**Çində iki güclü zəlzələ olub. "Reuters"in məlumatına görə, təbii fəlakət nəticəsində 11 nəfər həlak olub, 122 nəfər xəsarət alıb.**

Yeraltı təkanlar Sıçuan əyalətində qeydə alınıb. Əvvəcə 5,9, sonra isə 5,2 bal gücündə zəlzələ olub.

Yeraltı təkanların epimərkəzi 10 kilometr dərinlikdə qeydə alınıb.

***Qəzənfər QASIMOV, "Xalq qəzeti"***

# Mərkəzi Asiya ölkələrinə dair yeni strategiya qəbul edilib

**Əfqanıstanda sülhə dəstək məqsədilə əməkdaşlığı genişləndirmək üçün Avropa İttifaqı Şurası Mərkəzi Asiya ölkələrinə dair yeni strategiya qəbul edib. Bu barədə RİA "Novosti" məlumat yayıb.**



Bildirilir ki, sənəd Mərkəzi Asiya ölkələri ilə geniş tərəfdaşlıq əlaqələrinə dair sazişlər imzalayıb həyata keçirməyə hazırlığı özündə ehtiva edir.

Aİ Şurası 2007-ci ildə regiona dair birinci strategiyanın qəbulundan sonrakı müddət ərzində Qazaxıstan, Qırğız Respublikası, Özbəkistan, Tacikistan, Türkmənistanla münasibətlərin güclənməsini alqışlayaraq yeni strategiyanın da Mərkəzi Asiyada dayanıqlı inkişafa, rifaha, regional əməkdaşlığa dəstək məqsədi daşıdığını qeyd edib.

Yeni strategiyada həmçinin "Aİ ilə Mərkəzi Asiya ölkələri arasında qarşılıqlı əlaqələrdə təməl daşı olaraq qalan" maraqlı ölkələrlə də geniş tərəfdaşlıq və əməkdaşlıq haqqında sazişlərin imzalanması və həyata keçirilməsinə sadiq olduqları diqqətə çatdırılıb.

***Mahmud QƏRİBOV, "Xalq qəzeti"***

# Fransada tennis topu boyda dolu



**Fransanın cənub-şərqinə diametri tennis topu boyda olan dolu yağıb.**

9 rayonda təhlükəli vəziyyət elan edilib. Dolu yağması nəticəsində 10 nəfər xəsarət alıb. Əksər evlərin dam örtüklərinə və pəncərə şüşələrinə ciddi ziyan dəyib. Güclü küləklə müşayiət olunan dolu elektrik verilişi xətlərini də sıradan çıxarıb.

Təbii fəlakət nəticəsində xeyli avtomobil zədələnib. Ən çox ziyan isə fermerlərə dəyib. Güclü dolu meyvə məhsullarını, o cümlədən üzümlükləri məhv edib.

***Qəzənfər QASIMOV, "Xalq qəzeti"***


## BİLDİRİŞ

**Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidməti**

tərəfindən 2019-ci ildə heyvanlar və quşlar arasında epizootiya əleyhinə tədbirlərin aparılması üçün bioloji preparatların, dezinseksiya, dezinfeksiya, müalicə-profilaktika dərmanlarının, diaqnostikumların, reaktivlərin və baytarlıq ləvazimatlarının satınalınması məqsədilə "Xalq qəzeti"nin 17 may və 1 iyun 2019-cu il tarixli nömrələrində dərc edilmiş tenderin ilkin sənədlərinin qəbulu yeni strukturun yaranması ilə əlaqədar olaraq 2019-cu il iyulun 12-nə, təkliflərin son təqdimatı 2019-cu il iyulun 22-nə, zərflərin açılışı isə 2019-cu il iyulun 23-nə kimi uzadılır.

***Tender komissiyası***


# Hindistanda həkimlər tətilə başlayıblar

❒ ***Qərbi Benqal ştatında həkimlərə qarşı zorakılıq hadisələrindən sonra Hindistanın ən iri həkim təşkilatlarından olan İMA (The İndian Medical Assotiation) 24 saatlıq tətilə başladıqlarını açıqlayıb. Bu barədə TASS agentliyi məlumat yayıb.***

Bildirilir ki, adıçəkilən təşkilat səhiyyə işçilərinin təhlükəsizliyini təmin etmək tələbi ilə bu addımı atıb. İştirakçılar bildirib ki, tətil zamanı yalnız təcili yardım və bədbəxt hadisələrdən zərər çəkənlərə yardım göstəriləcək.

Qeyd edək ki, bir həftə əvvəl Kəlküttədəki bir xəstəxanada vəfat edən yaşlı xəstənin qohumları həkimlərə qarşı zor tətbiq etdikdən sonra Qərbi Benqal ştatının 300-dək səhiyyə işçisi hökumətin fəaliyyətsizliyinə qarşı etiraz olaraq istefa vermişdi.

Məlumatda bildirilir ki, İMA səhiyyə işçilərinə qarşı zor işlədənləri təcili olaraq cəzalandırmaq, dövlət səhiyyə ocaqlarında təhlükəsizliyi təmin etmək, həkimlərə və tibbi heyətə qarşı zorakılıqla mübarizə qanunu hazırlayıb tətbiq etmək tələblərini irəli sürüb.

***Rövşən ATAKİŞİYEV, "Xalq qəzeti"***





## "Puta-Nəqliyyat-2" ASC səhmdarlarının nəzərinə!

2019-cu il avqustun 3-ü saat 14.00-da "Puta-Nəqliyyat-2" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1. Cəmiyyətin 2018-ci ildə maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarına dair idarə heyətinin hesabatı.

2. Digər məsələlər.

Yığıncağın gündəliyinə dair sənədlərlə cəmiyyətin yerləşdiyi ünvanda tanış olmaq mümkündür.

Yığıncaqda bütün səhmdarların şəxsiyyəti təsdiq edən sənədlə (vəkil edilmiş nümayəndələrin notarial təsdiq olunmuş etibarnamə və şəxsiyyəti təsdiqləyən sənədlə) iştirakı vacibdir.

Ünvan- Bakı, Qaradağ rayonu, Puta qəsəbəsi, "Puta-Nəqliyyat-2" ASC-nin iclas zalı.

***İdarə heyəti***

✓ *İraq Respublikasının vətəndaşı Namarıq Faris Mohammed Alhelalın adına verilmiş A 12243191 nömrəli pasport itdiyi üçün etibarsız sayılır.*

✓ *Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən "Plane Construction" MMC-yə verilmiş 15 iyul 2014 –cü il tarixli 081407 nömrəli (qeydiyyat nömrəsi L-14-035) lisenziya və onun əlavəsi itdiyi üçün etibarsız sayılır.*


## Hava proqnozu

➲ **İyunun 19-da**

➲ **Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək. Şimal-qərb küləyi əsəcək, arabir güclənəcək. Gecə 20-24, gündüz 28-32, Bakıda gecə 21-23, gündüz 30-32 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 756 mm civə sütunu , nisbi rütubət gecə 60-70, gündüz 35-40 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu 23-24 dərəcəyə çatacaq.

➲ **Naxçıvan Muxtar Respublikasında** əsasən yağmursuz keçəcək. Lakin gecə və axşam bəzi yerlərdə şimşək çaxacağı, yağış yağacağı gözlənilir.Dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək. Gecə 17-22, gündüz 31-36 dərəcə isti olacaq.

➲ **Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında** bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Gecə 11-16, gündüz 20-25 dərəcə isti olacaq.

➲ **Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında** bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gündüz tədricən kəsiləcək. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Gecə 17-22, gündüz 27-32 dərəcə isti olacaq.

➲ **Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında** bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Gecə 15-20, gündüz 25-30, dağlarda gecə 10-15, gündüz 20-25 dərəcə isti olacaq.

➲ **Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında** bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Gündüz əsasən yağmursuz keçəcək. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Gecə 19-24, gündüz 30-35 dərəcə isti olacaq.

➲ **Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında** əsasən yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Gecə 19-22, gündüz 30-35 , dağlarda gecə 14-18, gündüz 23-28 dərəcə isti olacaq.


## ALLAH RƏHMƏT ELƏSİN

Kənd Təsərrüfatı Nazirliyinin kollektivi nazirliyin torpaqdan istifadəyə nəzarət şöbəsinin baş məsləhətçisi Zakir Nəbiyevə anası

**BAĞDA NƏBİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.



BAŞ REDAKTOR

HƏSƏN HƏSƏNOV

TELEFONLAR:

Məsul katib: 493-61-02
Şöbələr: 493-59-03 (8 xətli), 493-69-47, 493-34-13, 493-34-23, 493-59-47, 493-45-18, 493-33-01, 598-84-13.
Reklam və elanlar: 493-82-21, Faks: (99 412) 493-02-80, 598-28-64;
E-mail: info@xalqqazeti.com, xalqqazeti@gmail.com



"Xalq qəzeti"nin kompyuter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:

AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 7926
SİFARİŞ 1989
QİYMƏTİ 40 qəpik

Çapa imzalanmışdır 00:00